Respublika.- 2019.- 14 aprel.- S.6

# İnkişafın Azərbaycan modeli bəşəriyyət üçün mühüm töhfədir

## *Bu, bir tərəfdən Prezident İlham Əliyevin planetar təfəkkürü, digər tərəfdən isə xalqımızın zəngin tarixi ənənələrə, mənəvi dəyərlərə malik olması ilə bağlıdır*

**XX əsrin 90-cı illərindən dünyadakı siyasi vəziyyətə müxtəlif təsirləri ilə müşahidə olunan bəzi ölkələrin fəaliyyətləri bu gün Şərqdə və Qərbin bir sıra ölkələrində həlli dalana dirənmiş problemləri daha da kəskinləşdirmişdir. Bu araşdırma antiazərbaycan mövqeyi tutmuş, tariximizi saxtalaşdırmağa çalışan ermənilərin və onları müdafiə edən xarici ölkələrdəki ermənipərəst qüvvələrin fəaliyyətindən tutmuş, bir sıra Qərb ölkələrinin maraqlarına uyğun gəlməyən, legitim idarəçiliyi olan dövlətlərin dağıdılması planına nəzər yetirilməsinə qədər dərinləşdirilə və genişləndirilə bilər. Bunlar tarixdə təsadüfi liderlərin, cəmiyyətin inkişaf qanunlarına bələd olmayan, nadan siyasi oyunbazların zaman-zaman yaratdıqları miflərdən, yalançı görüntülərin təbliğindən, dünyada fövqəladə güc imicinin siyasi yollarla insanlara təlqin edilməsindən qaynaqlanmış, yayılmışdır.**

Tarixi təcrübə göstərir ki, hətta orta əsrlərin zamanından belə ənənəvi olaraq həmin ölkələrdə formalaşan belə qruplar hər cür vasitələrə əl ataraq dünyada qüvvələr balansını pozmaqla özünün dağıdıcı planını həyata keçirmək yolunu tutmuşdur. XV-XVI əsrlərdə Azərbaycan tarixində Ağqoyunlu-Osmanlı və Səfəvi-Osmanlı müharibələrinin gedişi, nəticələrinin təhlili sübuta ehtiyacı olmayan belə tarixlərdən biridir. Bu gün də həmin xəttin izləri davam etməkdədir. Xüsusilə, daxildən parçalama üçün pozucu fəaliyyətə cəlb edilmiş, digər dövlətlərin həm şüurlu və könüllü, həm də siyasi düşüncələrinin zəifliyi ucbatından təsir altına düşmüş qruplar həmişə bu oyunların əsas aparıcı qüvvəsinə çevrilmişdir. Xatırladaq ki, hələ ötən əsrin 30-cu illərində İspaniyada vətəndaş müharibəsi zamanı Madridə hücum edən Frankistlər general Frankonun rəhbərliyi ilə Madrid üzərinə 4-cü kolonla hücum edərkən 5-ci kolon kimi fəaliyyət göstərən xüsusi qrupu arxa cəbhədə işləyən agentlərin və təxribatçıların pozucu fəaliyyəti olaraq müəyyənləşdirmişdir. Bu zaman hərbiçi Emilo Mela "4-cü kolonla hücüm əməliyyatını planlaşdıraraq, 5-ci kolonla isə düşməni içəridən dağıdacaq, agent fəaliyyətini formalaşdırmışdır. Bu üsuldan sonralar İkinci Dünya müharibəsində də almanlar tərəfindən yaradılmış qruplar vasitəsi ilə istifadə olunmuşdur. Tarixçilər, daha sonralar bu fəaliyyətin, hətta öz dövlətinin ziyanına olaraq düşmənlə birləşməyədək mahiyyət kəsb edən təhlükəli bir anlayış olduğu qənaətinə gəlmişlər. Çünki tarixi təcrübə göstərmişdir ki, hər hansı dövlətin dağıdılması, onun sarsıdılmasını istəyən güclər bilavasitə vəziyyəti həmin qrupların vasitəsi ilə öyrənir, yeri gəldikdə isə qarşıya qoyulmiş hədəfləri onların köməyi ilə vurmağa nail olurlar. Bu məqsədlə "beşinci kolon" formalaşdırmaq prosesi indiyədək dərinləşdiyi ücün dünyanın bir çox ölkələrində çox ağır və həlli dalana dirənmiş problemlər yaratmışdır. Ona görə də dünyanı məhvə aparan, xüsusi bir təhlükəli ideologiyanın formalaşması prosesinin bəzi Qərb ölkələrində fəaliyyət göstərən qruplaşmalar tərəfindən davam etdirilməsi, bəşəriyyəti narahat edən ciddi problem kimi elmi müstəvidə müzakirəyə çıxarılmaqdadır. Bunlara münasibət bildirən Akademik Ramiz Mehdiyev yazır: "2014-cü ilin sentyabrından başlayaraq dünya bu dəfə Honkonqda növbəti "rəngli inqilab" cəhdinin şahididir. Bu onu göstərir ki, dünyadakı müəyyən qüvvələr onları qane etməyən hakimiyyətlərin dəyişdirilməsi üçün "rəngli inqilablar"dan istifadə etmək praktikasından imtina etməyiblər. *(Akademik R.Mehdiyev "İkili standartların dünya nizamı və müasir Azərbaycan. AzərTac, 3 dekabr 2014-cü il).*

Ötən əsrdə Sovet İmperiyasına qarşı yönəlmiş, əvvəlcə hərbi, daha sonra siyasi, lap axırıncı olaraq ideoloji vasitədən istifadə yolu ilə həmin ssenari tətbiq edilmişdir. Bu addım ilk növbədə Sovet İmperiyasının güc tərəfi kimi dayaqlarının sarsıdılmasına hesablanmış xüsusi ardıcıl bir plan idi. Həmin planın daha dağıdıcı olmasına səbəb bu idi ki, Sovet İmperiyası öz ideologiyasının təməlini xalqların qanı bahasına, onların tarixi haqlarının tapdalanması üzərində, saxta görüntülərlə qurmuşdu. Bu zaman, daha dəqiqi desək, dünyada eyni siyasi manevrlər edən, lakin müxtəlif formalarda həyata keçirilməyə yönəlmiş güc mənbələri qarşı-qarşıya qalmalı olmuşlar. Sovet İmperiyası isə sosial-siyasi və ideoloji baza baxımından daha çox laxlamağa meyilli idi.

XX əsrin 90-cı illərinin hadisələri həm də onu göstərdi ki, belə dağıdıcı siyasət iflasa uğramağa məhkumdur və həmin dövlətlərin özünün tarix səhnəsində qalıb-qalmamasını sual altına qoyur. Bu, tarixi qanunauyğunluqdur. Əlbəttə, belə ideologiya üzərində formalaşan dövlətlərin tarix səhnəsində bu tendensiya ilə qarşılaşması birmənalı olaraq qaçılmazdır. Məsələn, Qafqazda XIX əsrin birinci yarısından demoqrafik vəziyyətdə dəyişikliklər baş verərkən Azərbaycanda erməni əhalisinin sayı kütləvi olaraq digər ölkələrdən köçürülmə yolu ilə artmağa başlayır. Qərbi Azərbaycanın bəzi mahallarında - (indiki Ermənistan Respublikasında) ermənilərin sayca üstünlük qazanmasına ciddi cəhdlər öz nəticəsini verir. Bununla çar Rusiyasi əldə vasitə olan "məzlum ermənilər" kartından istifadə edərək ermənilərə azərbaycanlıların əzəli torpaqlarında tarixdə heç zaman, heç bir əsası olmayan erməni dövləti qurmağa müyəssər oldu. Bu təhriklə ermənilər ötən iki əsr ərzində avtoxton azərbaycanlı əhalini bir sıra tarixi torpaqlarımızdan sıxışdıraraq çıxardı və monomilli ölkə yaratmaq üçün hər cür çirkin əməllərə əl atdılar." Bununla da "böyük Ermənistan" haqqında mif və naqis ideologiyadan irəli gələn xülyalar xalqlar arasında bu gün də davam edən tarixi düşmənçiliyə gətirib çıxardı. "Məzlum erməniçilk" ideologiyasının 2 əsrdən artıqdır ki, bunu dərk edə bilməməsi bir yana, özünü yabançı bir ideologiyanın əsirinə çevirməsi, Qafqaz bölgəsinə yad olan işğalçılıq, vandalizm, genosid kimi "qara yaraları" gətirdi. Bax bu ardıcıllıq xüsusi, ssenari əsasında çar Rusiyasının tarixi planı ilə düşünülmüş şəkildə aparılırdı. Nəticədə XX əsrin 90-cı illərində Sovet İmperiyasının xalqlara qarşı yürütdüyü çirkin ideologiyada partlayış baş verdi və elə bu amillər də imperiyanı çökdürdü. Bu sindromun dəhşətli ağrılarını və fəsadlarını bu gün də xalqımız yaşamaqdadır. Ona görə demək mümkündür ki, dünyada həmin ssenari ilə həyata keçirilən dağıdıcı ideologiyalar sırasında "erməniçilk" sindromu regionun, həm də bəşəriyyətin sabitliyinin pozulması yolunda daha ağır bəladır. Çox təəssüflər olsun ki, bu gün bunların ən ağır fəsadları idarəçilik sükanına məsuliyyət daşıyan bəzi dövlət liderlərinin fəaliyyətlərində özünü büruzə verməkdədir və bu bəlanın təsiri altına düşməkdə olanların sayı isə durmadan artmaqdadır. Məsələn, Yaxın Şərqin ötən əsrin 90-cı illərdəki siyasi vəziyyətinə nəzər salsaq görərik ki, Qərbin bir sıra dairələrindən qaynaqlanan dağıdıcı və ikibaşlı - milli, irqi ayrı-seçkilik üzərində qurulmuş siyasət Yaxın Şərqin təkcə siyasi həyatına deyil, həm də milli-mənəvi, iqtisadi, sosial, mədəni və s. sahələrində əsrlərlə ərsəyə gətirilmiş böyük bir bəşəri xəzinəni məhv edərək tarixdən silmiş oldu. Bununla da Şərq mədəniyyətinə elə bir ağır zərbə dəydi ki, onun yerini yüz illərlə doldurmaq mümkün olmayacaq. Bu, nədən irəli gəlirdi? Ən əvvəl yuxarıda göstərdiyimiz kimi baş vermiş ziddiyyətlər siyasi liderlər tərəfindən vaxtında və məqamında düzgün təhlil edilmədi. Bu halda, xalqın iradəsini ifadə edən siyasətin olmaması nəticəsində dağıdıcı qüvvələrin "yumruğu işə düşdü", xalqlar və onları idarə edən hakimiyyətlər əzilməyə başlandı. Ötən əsrin sonundan başlayan növbəti belə dalğa bir-birinin ardınca Şərq ölkələrinin bir neçəsinin iflası ilə nəticələnmişdir. Misirdə, İraqda, Suriyada, Liviyada, Əfqanıstanda və son vaxtlar Venesuelada baş vermiş xaosun, dövlət çevrilişlərinin siyasi mənbəyinin təhlili onu göstərir ki, həmin dağıdıcı qüvvələrin maraqlarını həyata keçirən "beşinci kolon" qruplaşmaları, bilavasitə ardıcıl olaraq dünya siyasi səhnəsində bu sifarişləri yerinə yetirməklə, ölkələri xüsusi rejimlə idarə olunan vassallıq sisteminə çevirməkdədirlər. Zənnimizcə, bu da qanuni yolla seçilmiş dövlət başçısının və dövlətin konstitusion sisteminə zidd və hörmətsizlik ifadə edən addım kimi həm beynəlxalq qanunların tapdalanması, həm də dövlətlərin dağıdılması prosesinə rəvac vermək deməkdir. Bu əsasda Şərq ölkələrinin timsalında da çoxlu misallar çəkmək olar. Ona görə də dünya nizamını təhlil edən Henri Kissincerin fikirləri maraq doğurur. O, "Dünya nizamı: millətlərin xarakteri və tarixin gedişi barədə düşüncələr" əsərində göstərir ki, "Birqütblü zaman kəsiyi bu gün özünün şərəfsiz sonluğuna yaxınlaşır". Daha sonra o, belə qənaətə gəlir ki, "Beynəlxalq münasibətlərdə müasir böhranın səbəbi onunla bağlıdır ki, bu münasibətləri ağlabatan şəkildə yenidən qurmaq, müasir reallıqlara uyğunlaşdırmaq əvəzinə onları sındırırlar". Bu da dövlətlər arasında qüvvələr tarazlığını pozaraq prosesdən yararlanmaq istəyən qüvvələrin maraqlarının təmin edilməsinə çalışmaları ilə izah olunmalıdır.

Yeri gəlmişkən, hadisələrin təhlilindən çıxan daha acı bir həqiqət göstərir ki, müasir dünya arenasında siyasi hadisələrin gedişini müəyyən edərkən həm də siyasətçilər sırasında böhran müşahidə edilməkdədir. Təəssüf ki, dünya siyasətinin taleyüklü məsələlərinin həlli zamanı bəzi siyasi liderlər regional və qlobal siyasi proseslərin incəliklərini düzgün dərk etməmək kimi zəruri qabiliyyətdən məhrumdurlar və beynəlxalq xarakterli məsələləri həll etmək üçün sanki səriştəsizdirlər. Çünki belə səriştəsizlik dünyanın taleyində mühüm əhəmiyyət kəsb edən məsələlərin müzakirəsi zamanı obyektivliyi yox, ayrı-ayrı sifarişlərin yerinə yetirilməsində özünü göstərməkdədir. Bunları unutmamalıyıq ki, Azərbaycan fərqli siyasəti ilə konkret mövqeyini daha dəqiq və aydın ifadə edən ölkə olaraq seçilir. Çünki Azərbaycan Qafqazda 2008-ci ilin avqustunda Gürcüstan-Rusiya müharibəsinin gedişində, 2014-cü ildə Ukrayna böhranı kimi hadisələrdə bəzi dövlətlərdən fərqli olaraq, ayrı-ayrı fövqəldövlətlərin maraqlarına deyil, müstəqil yanaşmanın tərəfdarı kimi beynəlxalq hüququn normalarından çıxış etmişdir. Bunu Gürcüstanın ağır siyasi böhranlı vəziyyətində, məlum nüvə proqramı məsələlərinin dinc yolla müzakirəsi üçün ardıcıl olaraq apardığı konstruktiv siyasətdə, Ukrayna böhranı zamanı BMT-nin Baş Məclisində Ukraynanın ərazi bütövlüyünü dəstəkləməkdə, bir ölkənin digərinin daxili işlərinə qarışmamağa dair tutduğu qətiyyətli mövqeyində və s. görmək mümkündür. 2014-cü ilin oktyabr ayında Bakıda keçirilən Beynəlxalq Humanitar Forumda Prezident İlham Əliyevin çıxışından aşağıdakı fikirləri qeyd etmək yerinə düşər: "Hesab edirəm ki, əgər hər bir ölkə müstəqil xarici siyasət aparsa, onda dünyada müharibələr də az olar, anlaşılmazlıq da azalar. Hər bir ölkə digər ölkəyə hörmətlə yanaşmalıdır. Hər bir ölkə digər ölkənin seçiminə də hörmətlə yanaşmalıdır - həm beynəlxalq müstəvidə, həm dinlərarası dialoq, humanitar sahədə".

Ona görə ki, birqütblü dünyanın "qüvvə mərkəzi"nin hegemonluğu özünü doğrultmadı. Əslində çoxqütbül dünya nizamı siyasi zərurət, tarixi, qarşılıqlı etimada əsaslanan münasibətlərinin formalaşması prosesində yeganə meyar olaraq dərk edilməlidir. Başa düşülməlidir ki, müxtəlif mənəvi dəyərlərə, dini əqidəyə, milli-tarixi inkişaf yoluna malik dövlətlərin bir mərkəzdən idarə olunması, onlara məcburi olaraq yad ünsürlərin təlqin edilməsi, bir zərərli proses olaraq tarixin qəbul etmədiyi amildir. Təcrübə göstərir ki, prosesin müxtəlif zamanlarda belə yöndə həyata keçirilməsi xalqlar arasında həlli dalana dirənmiş problemlər yaratmış, baş verənlərə görə bəzi dövlətlər dünya ictimaiyyəti qarşısında mənfi reputasiya qazanmışlar. Hazırda bir sıra terror təşkilatlarının qarşısının alınmasındakı çətinliklər də bilavasitə bu amillə bağlıdır.

Əlbəttə, hər bir ölkədə düşünülmüş, ümummilli maraqlara xidmət edən islahatlara hər zaman ehtiyac vardır. Çünki zaman keçdikcə həm fərdlərin, həm də cəmiyyətin baxış və istəklərində dəyişmələr baş verir ki, bu da təbii haldır. Bu proses zamanı yaranan fikir ayrılıqları isə ümumi inkişafa yönəlməli və yüksəlişə xidmət etməlidir. Bunun üçün hər hansı dövlətin sosial qruplarının fəallığı, ziyalılarının təşəbbüskarlığı və dövlətin bu posesə çevik münasibəti zəruridir. Bu incə məqam bütövlükdə ümumi mənafeyi, xalqın birliyini, mütəşəkkiliyini və inkişafını təmin edərsə, onda kənar müdaxilələrin təsirlərindən qorunmaq mümkündür. Biz hesab edirik ki, bu gün bəzi ölkələrin qarşılaşdıqları problemlərin kökündə dayanan əsas amillərdən biri də məhz bu sistemli əlaqənin olmaması, yaxud zəifliyidir. Yəni bəşəri və sivil yolu inkişaf modeli kimi secmək ən əvvəl öz milli kimliyinə hörmətdən, onun düzgün dərk edilməsindən keçir. Ona görə də hazırki şəraitdə birmənalı olaraq qeyd etmək lazımdır ki, müasir dünya siyasətində yad ünsürlərin təsir altına düşmək, bayağı ideyalarla, dağıdıçı siyasi oyunların qurbanına çevrilmək heç zaman, nə hər hansı bir dövlətə, nə də xalqa xeyir gətirməmişdir və gətirə də bilməz. Zənnimizcə, vahid milli düşüncənin möhkəm ideoloji bazası ona görə vacibdir ki, milliliklə bəşəriliyi bir-birinə bağlayan səbəbləri ayrıd edə bilsin, həm də qarşılıqlı inteqrasiyanın inkişafa səbəb olacaq yollarını düzgün müəyyənləşdirsin. Burada inkişafın Azərbaycan modeli əslində bəşəriyyət üçün mühüm töhfədir. Ona görə ki, bu, bir tərəfdən Prezident İlham Əliyevin planetar təfəkkürü, digər tərəfdən isə Azərbaycan xalqının zəngin tarixi ənənələrə, mənəvi dəyərlərə malik olması ilə bağlıdır. Təsadüfi deyil ki, ulu öndər Heydər Əliyev bu ənənələri həmişə fəxrlə nümayiş etdirmiş, dünyaya örnək olmasını qürurla göstərmişdir.

Azərbaycanın tarixən xarici güclərin maraq dairəsində olduğu reallığına söykənərək bir həqiqət başa düşülməlidir ki, siyasi naşılıqdan doğan hakimiyyət hərisliyi, hadisələrə dövlətçilik təfəkkürü mövqeyindən qiymət verməyi bacarmamaq və xaricdəki antiazərbaycan qüvvələrindən asılılıq nəticəsində, radikal müxalifət qismində mübarizə üsulu seçərək dövlətin maraqlarına, onun imicinə zərbə vurmaq (hazırda müxalifəti xarakterizə edən ən mühüm səciyyəvi xüsusiyyət onun bütünlükdə müsbət nə varsa inkar etmə və ona alternativ olaraq heç bir milli proqramın olmaması, ənənəvi populist çıxışlarla sosial baza yığmaq) cəhdləri heç kimə xeyir gətirə bilməz. Bu siyasət elmində nihilizmi xatırladır. Bu mənada prezident İlham Əliyev demişdir: "Xaricdən ianələr alan, vicdanını xaricilərə satan ünsürlərə Azərbaycan siyasətində yer yoxdur". Bu, həm də Azərbaycanda maraqları olan dövlətlərə öz yerini göstərən bir mesajdır və belə qruplar bilməlidirlər ki, onların göstərdikləri "fəallıq" vətənpərvər insanların deyil, onları himayə edən ermənipərəst qüvvələrin xoşuna gələcəkdir. Bir ziyalı vətəndaş kimi deməyə borcluyuq ki, bu gün Azərbaycan haqqında, onun dövlət başçısı haqqında sosial şəbəkələrdə, xarici ölkələrdə nəyin hesabınasa oturub böhtan, iftira yazanlar, çıxış edənlər öz vicdanları qarşısında (əğər varsa) hesabat verməlidirlər ki, bu Azərbaycan xalqına, onun dəyərlərinə özümüz tərəfindən verilən qiymətdir. Buna yalnız düşmənlər sevinə bilər. Bu, Azərbaycana qarşı dünyada olan müsbət münasibəti dəyişməklə, ümumi mənafeyimizə zərbə vurur. Əslində belə avanturist gedişlərin nəticəsi son 25 ildə regionda çox sürətlə inkişaf yolu keçməkdə olan Azərbaycan dövlətinə qarşı qara qüvvələrin çirkin niyyətlərinə xidmət etməkdən başqa bir şey deyil. Əlbəttə, bu belədir. Ona görə ki, biz tarixdə olduğu kimi, heç vaxt təcrid olunma siyasətini qəbul etməmişik. Vahid bəşəri dəyərlərə tövhələrin verilməsi, onları qorumaq, hərtərəfli əməkdaşlıq, prosesində yalnız inkişafa yönələn siyasətin həyata keçirilməsi dövlətimizin qarşısında həmişə prioritet olmuşdur. Bunu inkar etməyə hər hansı bir arqument yoxdur. 2014-cü il oktyabrın 2-3-də Bakı Beynəlxalq Humanitar Forumunda Prezident İlham Əliyevin fikirləri bu baxımdan mühüm tarixi əhəmiyyət kəsb edir: "Azərbaycanda bütün xalqlar dostluq, mehribanlıq şəraitində, bir ailə kimi yaşayır. Heç vaxt Azərbaycanda dini, milli zəmində qarşıdurma, anlaşılmazlıq olmayıb və bu, bizim böyük sərvətimizdir... Multikulturalizm Azərbaycanda həyat tərzidir...".

Biz düşünürük ki, bu siyasətdən dünyanın bir sıra ölkələri nümunə götürməlidirlər. Hərçənd, yuxarıda göstərdiyimiz "beşinci kolon"un əhatəsinə daxil olan erməni lobbisi və onun təsiri altında olan riyakar və korrupsiyaya qurşanmış qruplar dayanmadan həqiqətə göz yumaraq Azərbaycanı hörmətdən salmağa çalışırlar.

Prezident İlham Əliyev 2018-ci il 25 dekabr tarixində "Rossiya-24" telekanalına müsahibəsində dünyada gedən proseslərə Azərbaycanın yanaşmasını təhlil edərkən demişdir: "Azərbaycanın əhəmiyyətli rolu təkcə enerji bazarında deyil, həm də bütövlükdə geosiyasi planda artır. Bizim inkişafa, apardığımız müstəqil siyasətə mütənasib olaraq bizə təzyiq də artır. Ancaq bu enerji amilləri ilə bağlı deyil. Bu, bəzən bizi xalqımıza və ölkəmizə yad olan hansısa avantüralara cəlb etmək cəhdləri ilə bağlıdır. Həmin müsahibədə digər suala cavab olaraq dövlət başçısı qeyd etmişdir ki, "Qoşulmama Hərəkatının sədr ölkəsi kimi biz beynəlxalq arenada öz rolumuzu artıracağıq. Əlbəttə, çalışacağıq ki, Azərbaycanın tərəfdaşları olan ölkələr bizə necə dəstək göstərirlərsə, onlar da bizim tərəfimizdən eyni dəstəyi alsınlar". Bu siyasəti biz həm Azərbaycanın dünyadakı proseslərə aydın, işıqlı münasibətinin ifadəsi kimi qiymətləndirir, həm də digər xalqlar içərisində öz milli dəyərlərimizə olan münasibətin, inkişafın Azərbaycan yolunda milli iradəmizin ortaya qoyulması kimi dəyərləndiririk. Burada həm də əsas məsələ xalq-lider birliyindən gedir və bu, o qədər mütəşəkkil və möhkəm olmalıdır ki, yad, dağıdıcı "tullantı" ünsürlər öz çirkin niyyətlərini həyata keçirə bilməsinlər. Düşünürük ki, bu məqam, bu gün bizim və bizim kimi xarici maraqların mərkəzində olan bir sıra ölkələrin asas strateji hədəfi olmalıdır. Lakin bunun əvəzində biz nə görürük? Prezident İlham Əliyevin sülhsevər siyasəti, bəşəriyyətə bu məzmundakı çağırışları, dünyadakı humanist qüvvələrin bu siyasətə dəstəyinin vacibliyini şərtləndirməli olduğu halda, bu gün təəssüflə qeyd etməliyik ki, Avropanın və Qərbin bəzi ölkələrində Azərbaycanın bugünkü inkişafına kölgə salmaq, onun dövlətçiliyinə qarşı ənənəvi hücüm kampaniyasını təşkil etmək, bu məqsədlə iradəcə zəif, siyasi təfəkkürü olmayan şəxsləri bu kompaniyaya cəlb etmək meyilləri hələ də yaşanmaqdadır. Digər tərəfdən, bu məsələ ona görə təəssüf doğurur ki, həmin qüvvələr ölkəmizin daxilində də araqarışdırma yaratmaqla özlərinə bəzən "dayaq" tapmağa da nail olurlar. Məsələn, son günlər İrəvanın "Nubaraşen" təcridxanasında saxlanılan "Erməni qartalları: Vahid Ermənistan" partiyasının sədr müavini Mqer Yeqiazaryanın 52 günlük aclıq aksiyası nəticəsində öldüyü beynəlxalq müstəviyə məlumdur. Maraqlıdır ki, bu məsələyə münasibət bildirmək Qərb dairələrinin, insan hüquq müdafiəsi təkilatlarının diqqətindən yayınmışdır??? Lakin Azərbaycanda dövlət əleyhinə çağırışlar edən, onun suverenliyinə və təhlükəsizliyinə təhdidlər yaradan hər hansı şəxs haqqında hüquq müstəvisində ölçü götürülməsi məsələsi ortaya gələndə onun mürəkkəbi belə qurumamış bəzi beynəlxalq təşkilatlar tərəfindən gündəmə gətirilir. Məsələnin mahiyyətinə varmadan müzakirəyə çıxarılır. Sanki məqam gözləyən qruplar ölkəmiz haqqında ədalətsiz hesabatlar hazırlayırlar. Elə bu günlərdə (2019-cu il yanvar ayının 17-də) Avropa Parlamenti "Azərbaycanda vəziyyət və Mehman Hüseynovun işi" adlı 2019/2511 saylı reallığı əks etdirməyən qətnamə qəbul edərək bir daha Azərbaycana qarşı qərəzli mövqe nümayiş etdirmişdir. Təəssüf ki, uzun illərdir müşahidə etdiyimiz belə çirkin oyunlar, ikili standartlar siyasəti Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinin bu qədər uzanmasına səbəb olmuşdur. Azərbaycanın milli maraqlarına zərbə vuran qrupların Azərbaycanı manipulyasiya etməsinə yol verilmədikdə isə qara qüvvələr öz havadarlarının köməyi ilə ölkədə xaos yaradılması üçün fəallaşmağa cəhd edirlər. Əlbəttə, belə qrupların araqarışdırması xalqın iradəsi ola bilməz.

Yeri gəlmişkən bütün bunlar yuxarıda qeyd etdiyimiz kimi, qara qüvvələrin "İnkişafın Azərbaycan yolu" deyilən məfhumun dünyada özünəməxsus nüfuz və təsirə mailk olmasından ciddi narahatlıq keçirmələri ilə bağlı olduğunu deməyə bizə əsas verir. Burada da Prezident İham Əliyevin həmin müsahibədəki cavabını xatırlatmaq vacibdir: "Azərbaycanı hansısa beynəlxalq avantüralara cəlb etmək cəhdləri həmişə fiaskoya uğrayıb!".

Bu gün Azərbaycan dövlətinə qarşı çirkin niyyətlərlə fəaliyyət göstərməyə çalışan qüvvələr bilməlidirlər ki, Cənubi Qafqazda Azərbaycan dövləti möhkəm sosial bazaya malik sarsılmaz dayaqlar üzərində formalaşmışdır. İnanırıq ki, müdrik xalqımız bu sosial bazanın təməli kimi ulu öndər Heydər Əliyevin ideyalarından güc və qüvvət alaraq Yeni Azərbaycan Partiyasının bələdçiliyi ilə ölkəmizi onilliklərin sınağından uğurla cıxardığı kimi, hələ uzun illər qüdrətli dövlətçiliyimiz yolunda bələdçisi olacaqdır. Azərbaycan xalqının müdrikliyi heç zaman hansısa qara qüvvənin onu inkişaf yolundan döndərməsinə imkan verməmiş və verməyəcəkdir. Tarixin çətin sınaqlarından çıxarılan nəticələr zəngin dövlətçilik ənənələrimizə söykənərək Azərbaycanın gələcəyi naminə zaman keçdikcə Prezident İlham Əliyevin ətrafında bizi daha sıx birləşdirəcək.

**Sənan HƏSƏNOV,**
**siyasi elmlər üzrə fəlsəfə doktoru, dosent.**
**Telman QULİYEV,**
**"Dövlətşünaslıq" jurnalının baş redaktoru.**